

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

23 aprel 2021-ci il
Cümə

1933-cü ildən çıxır
№ 15 (3528)

# REGİONLARIN İQTİSADİ POTENSİALI ARTIR

## *Prezident İlham Əliyev bölgələrin inkişafını diqqət mərkəzində saxlayır*



Azərbaycanın sürətli iqtisadi inkişafı regionlarımızın sosial-iqtisadi və mədəni həyatında əldə olunan nəticələrlə, bölgələrdə həyata keçirilən layihələrlə birbaşa bağlıdır. Məhz buna görə dövlət başçısı regionların inkişafını hər zaman diqqət mərkəzində saxlayır, yerlərdə görülən quruculuq işləri ilə şəxsən tanış olur, müvafiq tapşırıqlar verir. Bu məqsədlə bölgələrə edilən səfərlər, həm də Prezidentin xalqla birbaşa təmasıdır.

Prezident İlham Əliyevin aprelin 20-də Hacıqabul rayonuna səfəri də bölgənin iqtisadi canlanmasına bir töhfə kimi yadda qalacaq.

Dövlətimizin başçısı səfəri çərçivəsində ümummilli lider Heydər Əliyevin Hacıqabul şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Daha sonra yenidən qurulan və uzunluğu 11,5 kilometr olan Hacıqabul-Muğan avtomobil yolunun texniki göstəriciləri barədə dövlət başçısına məlumat verilib.

Bu yol 32 min nəfərin yaşadığı 2 yaşayış məntəqəsi arasında əlaqəni gücləndirəcək. Eyni zamanda, əhalinin həm Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi yoluna, həm də Hacıqabul-Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat çıxışı təmin edəcək.

Həmin gün rayonda “Agro Dairy” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqroparkının təqdimatı da olub. Prezident İlham Əliyevə məlumat verilib ki, MMC regionlarda kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması, müasir texnika və innovasiyaların tətbiqi ilə yüksək məhsuldarlığa malik keyfiyyətli məhsul əldə etmək məqsədilə layihələr həyata keçirir. Onlardan Samux rayonunun Qaraağaclı kəndi ərazisində ümumi sahəsi 2698 hektar, Tovuz rayonunun Ceyrançöl ərazisində 7 min hektar və Padarçöl (Hacıqabul, Şamaxı) ərazisində 5 min hektar olan sahələrdə intensiv bitkiçilik təsərrüfatı yaradılıb, yeni ərazilər əkin dövriyyəsinə cəlb edilib.

“Agro Dairy” MMC-nin nümayəndəsi Prezidentin tapşırığına əsasən bu təcrübənin başqa təsərrüfatlara da tətbiq edildiyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, Prezidenti İlham Əliyev rayonun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olub, əkin sahəsində pambıq səpini prosesini izləyib. Bundan əlavə, “Azərsun Şamaxı Aqropark”ının və Hacıqabul Sənaye Məhəlləsinin açılışında iştirak edib.

Əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatını şəxsi nəzarətində saxlayan Prezident İlham Əliyev Hacıqabulda 110/35/10 kilovoltluq “Qarasu” yarımstansiyasının istismara verilməsində də iştirak edib.

Dövlət başçısının diqqətinə çatdırılıb ki, yarımstansiyanın istismara verilməsi ilə ümumilikdə 10 mindən çox əhalinin elektrik enerjisi təchizatı daha da yaxşılaşdırılıb. Burada quraşdırılan müasir tipli eleqaz və vakuum açarları, mikroprosessor tipli rele mühafizə sistemi, Komplekt Transformator Məntəqələri və nəzarət-avtomatika qurğularının elementləri birləşdirilərək vahid “Ağıllı Şəbəkələrin İdarəetmə Mərkəzi”nə qoşulub.

Daha sonra Prezident İlham Əliyev “Qarasu” yarımstansiyasını işə salıb.

# NƏTİCƏLƏR MÜZAKİRƏ OLUNUB

## *Nazir Vilayət Eyvazov: "Əsas vəzifələrimizdən biri də vətəndaş məmnunluğunun təmin edilməsidir"*



**Aprelin 22-də Daxili İşlər Nazirliyində videokonfrans formatında mülkiyyət əleyhinə cinayətlər, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, cinayət işlərinin istintaqı və təhqiqat sahəsində fəaliyyətin nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

**İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov kriminogen duruma təsiri, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından bu istiqamətlərdə ətraflı müzakirələrin aparılmasının və qarşıda duran vəzifələrin müəyyən edilməsinin zəruriliyini bildirib.**

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis polkovniki İslam Hümbətov və Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi, polis general-mayoru Emil Usubov məruzə edərək həyata keçirilən tədbirlərdən, əldə edilmiş nəticələrdən danışıblar.

Məruzəətrafı çıxışlarda aidiyyəti ərazi orqanlarının rəisləri görülmüş işlər və mövcud olan çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran general-polkovnik V.Eyvazov cari ilin birinci rübündə asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub saxlanıldığını və inkişaf etdirildiyini diqqətə çatdırıb. Həmçinin, xidməti fəaliyyətdə səmərəliliyin artırılması, xüsusən vətəndaşların narkotiklərin ziyanlı nəticələrindən qorunması, həmin vasitələrin tranzit daşınmasının qarşısının alınması, bu işin sərhədyanı bölgələrdə daha da gücləndirilməsi üzrə tapşırıq və tövsiyələrini verib.

**Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən olduğunu xatırladan nazir bütün müraciətlərə həssaslıqla yanaşılmasının, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini nəzərə çatdırıb.**

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

# VƏTƏNƏ SİPƏR OĞULLAR

## *Çavuş Zeynal Məmmədov: "Çoxsaylı qəlpə yarası ilə sağ qalmağıma hələ də inana bilmirəm"*

**Çavuş Zeynal Gülməddin oğlu Məmmədovu hələ Daxili Qoşunların Gəncə şəhərindəki “N” saylı hərbi hissənin patrul taborunda bölük komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmət etdiyim dövrdən tanıyırdım. Bölüyün nümunəvi xidməti və intizamı ilə fərqlənən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xatirimdə qalmışdı o...**



Tale elə gətirdi ki, onunla bir də nə az, nə çox, düz 9 ildən sonra Daxili Qoşunların Hərbi Hospitalında görüşdük. Lakin bu dəfə Vətən müharibəsinin qəhrəman döyüşçüsü, Şuşa uğrunda ağır yaralanmış qazi hərbi qulluqçumuz kimi qarşıma çıxmışdı Zeynal...

Çavuş Z.Məmmədov 1991-ci il martın 23-də Sumqayıt şəhərində doğulub, Qazaxıstan Respublikasının Aktau şəhərində böyüyüb boya-başa çatıb. Orta təhsilini Aktaudakı orta məktəblərdən birində alıb. Hələ onuncu sinifdə oxuyarkən ali təhsilini Azərbaycanda almaq üçün Vətənə qayıdan Zeynal bu arzusuna çatmadıqda, hərbi xidmətini Azərbaycan Silahlı Qüvvələrində yerinə yetirməyə qərar verir. Beləliklə, 2010-2011-ci illərdə Daxili Qoşunların Gəncədəki “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçir. Uşaq yaşlarından hərbçi peşəsinə böyük marağı olduğundan, müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra valideynlərinə Qazaxıstana qayıtmaq istəmədiyini, qoşunların Quba rayonundakı “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətdə qalaraq, Vətən qarşısında şərəfli borcunu yerinə yetirməkdə davam edəcəyini bildirir. 2020-ci ilin iyul ayından Daxili Qoşunların Lənkərandakı “N” saylı hərbi hissəsində xidmətini davam etdirən çavuş Z.Məmmədov yaralandığı günədək xüsusi təyinatlı dəstənin həmlə qrupunda atıcı-snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu kimi 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə təltif edilib.

Çavuş Z.Məmmədov Füzuli və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib: “İlk döyüşümüz 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində, “Karyer” deyilən ərazidə olub. Burada düşmənin “Beton post” deyilən möhkəmləndirilmiş mövqeləri yerləşirdi. Həmin postları tutduqdan sonra məğlubiyyətlə barışmaq istəməyən ermənilər olduğumuz mövqeləri minaatanlardan və digər müxtəlif çaplı silahlardan intensiv atəşə tutdular. Çətinliyə baxmayaraq, irəliləməkdə davam etdik və qrupumuz daha bir yüksəkliyi aldı. Bu döyüşdə yarımqrup komandiri kiçik gizir Məmmədov Anar Zəhəddin oğlu qəhrəmancasına şəhid oldu. Digər silahdaşımız çavuş Abbasov Elvin Mədət oğlu isə ağır yaralandı. Onu da qeyd edim ki, oktyabrın 31-dək qrupumuz, həmçinin, işğaldan azad edilən ərazilərdə axtarış əməliyyatlarında da fəal iştirak edib. Bundan sonra növbəti tapşırığımız Şuşanın azad olunması oldu. Məhz bu baxımdan gizli yollarla düşmənin nəzarətində olan ərazilərdən keçərək, dörd gün Şuşa istiqamətində hərəkət etməli olduq”.

Döyüşdükləri mövqenin düşmən tankı tərəfindən atəşə tutulması nəticəsində çoxsaylı qəlpə yarası almasına rəğmən, hələ də həyatda sağ qalmasını möcüzə adlandıran qazimiz qazandığımız qələbədə onun da payı olmasından qürur hissi keçirdiyini deyir: “Bizim tapşırığımız Xankəndidən Şuşa istiqamətində hərəkət edən düşmən qüvvələrinin qarşısını kəsmək idi. Hələ noyabrın 5-də digər qruplarla birgə düşmənin Şuşaya doğru hərəkət edən kolonunu – 1 ədəd PDM, şəxsi heyət və ərzaq daşıyan 5 digər texnikasını və 103 nəfər əsgərini pusquya salıb məhv etdik. Bundan sonra qrupumuz vaxt itirmədən hərəkət edərək Xankəndi-Şuşa yolundakı yüksəklikdə mövqe tutdu.



Noyabrın 6-da təxminən saat 11:00-dan etibarən artıq Şuşa ətrafında qızğın döyüş gedirdi. Qrupumuz ermənilərin Şuşadakı silahlılara köməyə gələn qüvvəsinin qarşısını qətiyyətlə alırdı. Dəstəmizin cəsur döyüşçülərindən baş çavuş Kənan Kərimov və çavuş Zamiq Ağayev RPQ-7 qumbaraatanı ilə ermənilərin 2 ədəd tankını məhv etdilər. Bizimlə açıq döyüşə girməkdən qorxan düşmən silah-sursatını da atıb qaçmağa başladı. Bundan sonra uzaq məsafədən mövqelərimizi tank və minaatanlardan atəşə tutdular. Elə bu zaman düşmən tankının atdığı mərmi yaxınlığımızdakı qayaya dəydi. Bu vaxt sağımda vuruşan MAXE əsgər Seyfullayev Fərid Xeyrulla oğlu şəhid oldu. Mən də çoxsaylı qəlpə yarası aldım. Özümə gələndən sonra baxdım ki, əlim və ayağım qan içindədir. Təsəvvür edin, adi günlərdə ayağımdan çətinliklə çıxan uzunboğaz çəkmənin bir tayı iplə bağlı vəziyyətdə belə zərbənin təsirindən “yoxa çıxmışdı”. Yaralı halda meşə istiqamətində təxminən yüz metrə kimi süründüm. Sonra MAXE əsgər Qafqaz Hüseynov və digər döyüşçü yoldaşlarım məni güllə və mərmi yağışı altından çıxardılar...

Noyabrın 9-u axşam bizi Hadrut qəsəbəsinə, orada tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Xəstəxanasına, oradan isə Bakıya, Daxili Qoşunların Hərbi Hospitalına gətirdilər. Nə deyim, aldığım çoxsaylı qəlpə yarası ilə həyatda sağ qalmağıma hələ də inana bilmirəm. Şükürlər olsun ki, həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Lakin tam sağalmağım üçün ambulator müalicə davam edir.

Əsas odur ki, işğal olunmuş müqəddəs yurd yerlərimizi yağı düşmən tapdağından azad edib, qələbə çaldıq”.

Azərbaycan Respublikası Prezidentinin 18, 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Məmmədov Zeynal Gülməddin oğlu “Döyüşdə fərqlənməyə görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# O, Vətən tarixində “TOPÇU VÜSAL” kimi qalacaq





**Vətən savaşında sərrast atışları ilə düşmənin onlarla canlı qüvvəsini, eləcə də döyüş texnikasını məhv edən “Topçu Vüsal” kimi tanıdığımız Vüsal Şahkərimov artıq bir neçə gündür ki, böyüyüb boya-başa çatdığı Xaçmaz rayonunun Qusarçay kəndinə, evinə məzuniyyətə gəlib.**

Top atəşini yerinə yetirdikdən sonra cəsur duruşu ilə igid Azərbaycan əsgərinin simvoluna çevrilən 19 yaşlı əsgərimizlə bugünlərdə Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşları da görüşüblər.

Rayon Polis Şöbəsinin əməkdaşları Vüqar Orucov və Ülfan Əhmədov onun müharibə zamanı göstərdiyi qəhrəmanlıqları ilə fəxr etdiklərini bildiriblər. Ürəyi Vətən eşqi ilə döyünən igid oğul böyütdükləri üçün Vüsalın valideynlərinə də minnətdarlıqlarını ifadə edən polislər işğal altındakı torpaqlarımızın cəsur oğulların canı, qanı bahasına azad edildiyini vurğulayıblar.

“Topçu Vüsal”a bundan sonra da xidmətində uğurlar arzulayan həmkarlarımız görüşün sonunda igidimizlə xatirə şəkli çəkdiriblər.

Xatırladaq ki, V.Şahkərimov Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunub.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Döyüş sursatları aşkar edilib




**İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.**

**Qubadlı Rayon Polis Şöbəsinin** əməkdaşlarının keçirdiyi növbəti tədbir zamanı düşmənin atıb qaçdığı 118 minaatan mərmisi və 181 ədəd minaatan mərmisinə məxsus partlayıcı aşkar edilərək götürülüb.

Təhlükəsizlik tədbirləri Füzuli rayonunda da həyata keçirilib. DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupunun məlumatına görə, **Füzuli RPŞ-nin** əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdə 1 pulemyot, 5 avtomat, 14 əl qumbarası, 42 minaatan, 15 qumbaraatan mərmisi, 47 avtomat darağı, 5788 ədəd müxtəlif çaplı güllələr və digər döyüş sursatları tapılaraq aidiyyəti üzrə təhvil verilib.



# "Təmiz hava" aylığı

## *Keçirilən tədbirlərdə məqsəd atmosferin çirklənməsinin qarşısını almaqdır*

**Ölkəmizdə keçirilən “Təmiz hava” aylığı çərçivəsində Göygöl Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsi, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 saylı Ərazi şöbəsinin əməkdaşlarının birgə təşkilatçılığı ilə reyd keçirilib.**

Məqsəd avtomobillərin ixrac qazlarının tərkibində olan zərərli maddələrin atmosferi çirkləndirməsinin qarşısını almaqdır.

Tədbir zamanı yol polisi və ETSN-in əməkdaşları sürücülərin diqqətinə çatdırıblar ki, istifadələrində olan avtomobillərin yanacaq sistemini tənzimləməklə onları saz vəziyyətə gətirməli və ixrac qazlarının tərkibinin normalara uyğunlaşdırılmasını təmin etdikdən sonra istismarına yol verməlidirlər. Tələblərə cavab verməyən avtomobillərin sürücüləri barədə inzibati qaydada tədbirlər görülüb.



**Saatlı Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsi** əməkdaşları tərəfindən də təhlükəsizlik tədbirləri keçirilib. Yol hərəkəti qaydalarını pozan, karantin rejiminə əməl etməyən 18 sürücü barəsində protokollar tərtib edilib. Tədbirlərin davamı olaraq RPŞ-nin əməkdaşları sanitar-epidemioloji normaların qorunmasının təmin edilməsi məqsədi ilə iri ticarət obyektlərində reyd keçiriblər. İşçilər və müştərilərlə profilaktiki söhbətlər aparılıb, qayda pozuntusuna yol vermiş 8 nəfər barəsində protokollar tərtib edilib.

Daha bir reyd və maarifləndirmə tədbiri **Astara RPŞ-nin Dövlət Yol Polisi Bölməsinin** əməkdaşları tərəfindən keçirilib, rayon ərazisində dayanma-durma qaydalarını pozan sürücülər müəyyən edilib.

Tədbir zamanı avtobus dayanacaqlarını, piyada səkilərini zəbt edən, eləcə də nəqliyyat vasitələrini yolun ikinci cərgəsində saxlayan sürücülərlə izahedici söhbətlər



aparılıb, digər hərəkət iştirakçılarına mane olduqları və əməllərinin inzibati xəta tərkibi yaratdığı diqqətə çatdırılıb. Kobud qayda pozanlar barədə protokollar tərtib edilib. Yeri gəlmişkən, reyd zamanı ictimai nəqliyyatda pandemiya əleyhinə rejimi, sanitarya-gigiyena ve karantin qaydalarını pozan 20 nəfər barəsində də inzibati protokol tərtib olunub.

**Daşkəsən RPŞ-nin Dövlət Yol Polisi Bölməsinin** əməkdaşları da təhlükəsizlik kəmərindən və işıq cihazlarından düzgün istifadə etməyən sürücülərin maarifləndirilməsi məqsədilə reydlər keçiriblər. Qaydalara əməl etməyən sürücülər barədə inzibati protokollar tərtib edilib.

**Tədbirlər Cəlilabad, Biləsuvar, Şəmkir, Qax, Gədəbəy və Kürdəmir** rayonlarında da davam etdirilib.

# "Zəfər yolu" Şuşaya aparır

**"Hazırlaş, sabah Şuşaya ezamiyyətə gedirsən",- deyəndə bir anlıq duruxdum. Sinəmdəki sevinc səli dilimdəki sözlərin önünü elə kəsdi ki, nə deyəcəyimi bilmədim.**

***DİN Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidovun:*** "Mətbuat Xidmətinin tarixində Vətən savaşından sonra Şuşa şəhərinə ezamiyyətə gedən ilk əməkdaş sən olacaqsan",- deməsi məsuliyyətimi birə-beş artırdı…

Dan yeri ağaranda yola yarılamışdıq. Horadiz qəsəbəsində polis nəzarət postunu keçəndən sonra məlum oldu ki, Şuşaya "Zəfər Yolu" ilə gedəcəyik.

Bu yol şəhidlərimizin qanı ilə yazdıqları şanlı tarixə şahidlik edib. İllər idi ki, ot basmış cığırların yola çevrilib üzü Şuşaya doğru getməsini arzulayırdıq. Vətən savaşında Müzəffər Ordumuzun Şuşa şəhərini işğaldan azad etmək üçün açdığı cığırı Silahlı Qüvvələrin Ali Baş Komandanı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev əbəs yerə "Zəfər yolu" adlandırmadı. Uzunluğu 101 kilometr olan, Şuşamızı azadlığına qovuşduran bu yol mənfur düşmənə həm də göz dağıdır.



Yol boyu işğaldan azad olunan kənd və qəsəbələrimizi gördükcə tanrının Azərbaycan xalqına nə qədər gözəl təbiət bəxş etdiyinin sevincini, bu yerlərin uzun illər düşmən tapdağı altında qalmağının isə kədərini eyni anda yaşayırdım…

Quruluşuna və relyefinə görə təbii qalanı xatırladan Şuşaya Daşaltıdan keçərək daxil olduq. Şəhərin yenidən tarixi görünüşünə qayıtması üçün tam sürətlə abadlıq, bərpa işləri həyata keçirilir. Şuşanın simvolu olan Cıdır düzünə, İsa bulağına, Gövhər ağa məscidinə və xalqımız üçün müqəddəs olan digər məkanlara baş çəkəndən sonra Şuşa Rayon Polis Şöbəsinə gəldik. Şöbəyə ayaq basdığımız andan buradakı nizam-intizamı, səliqə-sahmanı, ən əsası, qələbə qazanmış ölkənin qalib polisinin üzündəki ruh yüksəkliyini gördük. Respublikanın müxtəlif rayon polis şöbələrində, habelə Bakıda xidmət edən və əslən Şuşadan olan əməkdaşları görəndə, düzü, çox sevindik. Məlum oldu ki, onlar xidmətlərini Şuşa Rayon Polis Şöbəsində davam etdirmək üçün Daxili İşlər Nazirliyinin rəhbərliyinə müraciət ediblər.



Şöbənin əməkdaşlarının xidməti olduqca məsuliyyətli və şərəflidir. Nazirliyin rəhbərliyinin, eləcə də Şuşa RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Səməd Məhərrəmovun verdiyi tapşırıqları layiqincə yerinə yetirməyə çalışırlar.

Şuşada olduğumuz müddətdə təbiətin daha bir möcüzəsinin-ilin bütün fəsillərinin şahidi olduq.

Həsrətimizlə heyrətimizin qovuşduğu o gün sıldırımlı qayalardan üzü Xankəndinə doğru asılan və düşmənin canına qorxu salan, əzəmətlə dalğalanan bayrağımızı seyr etdikcə qulağımda ***Ali Baş Komandanın: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!" şüarları səslənirdi…***

*Anar Qafarov,*
*polis kapitanı*

# Bir əsrlik təhsil ocağı

## *Bu il Daxili İşlər Nazirliyinin Polis Akademiyasının yüzillik yubileyidir*



**Daxili işlər orqanları üçün kadr hazırlığı həyata keçirən DİN-in Polis Akademiyasının bu il təsis edilməsinin 100 illiyi tamam olur.**

Bu qocaman təhsil ocağı ötən bir əsrdə nailiyyətlərlə zəngin tarixi yol keçib. Ölkəmizdə sovet hakimiyyətinin ilk illərində daxili işlər orqanları üçün kadrların hazırlanması məqsədilə 1921-ci ilin sentyabrın 28-də sıravı və kiçik komandir heyəti hazırlayan milis məktəbi yaradılıb, 1957-ci ildə isə onun əsasında Bakı Xüsusi Orta Milis Məktəbi təsis edilib. Dövlət müstəqilliyinin bərpasından sonra ali təhsilli polis kadrlarına olan tələbat daha da artdığına görə həmin Məktəbin bazasında Polis Akademiyası yaradılıb və ona birinci dərəcəli ali təhsil müəssisəsi statusu verilib.

Qeyd edək ki, "DİN-in Polis Akademiyasının 100 illik yubileyinin keçirilməsi haqqında" daxili işlər naziri, general polkovnik Vilayət Eyvazov tərəfindən müvafiq əmr imzalanıb. Əmrdən irəli gələn Tədbirlər Planı da təsdiq edilib və artıq tədbirlərin həyata keçirilməsinə başlanılıb. Buraya yubiley nişanının təsis edilməsi, elmi-praktiki konfransların, idman yarışlarının keçirilməsi, sənədli filmlərin çəkilməsi kimi müxtəlif məzmunlu tədbirlərin təşkil edilib həyata keçirilməsi daxildir.

Konstitusiyamızda təsbit olunan hüquqi dövlət quruculuğunun, ilk növbədə, qanunların aliliyini, insanların hüquq və azadlıqlarını qoruyan hüquqşünasların sayəsində ərsəyə gəldiyini nəzərə alsaq, Polis Akademiyasının bu prosesdəki xidmətini və rolunu aydın təsəvvür edərik. Fəxrimiz və qürurumuz olan təhsil müəssisəsinin bu tarixi missiyası hər birimizdə iftixar hissi doğurur.

***Yeri gəlmişkən, əgər Akademiyanın məzunlarından kimdəsə tarixi əhəmiyyəti olan foto, sənəd varsa, 100 illik yubileyini qeyd etməyə hazırlaşan təhsil ocağına və ya elə "Polis"in redaksiyasına təqdim edə bilər. Bu, həm doğma Akademiyamıza, həm də tariximizə töhfə olardı…***

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Düşmənin qisas tələsi

## *Minalanmış ərazilər ölüm saçır*

**Müxtəlif bəhanələr, dəyişən adlar və rəqəmlər. Sonunda peşmanlıq, kəsilən əllər, ayaqlar və ölüm. Edilən xəbərdarlıqlar nə üçün qulaqardına vurulur? Görəsən bəziləri qadağaları çeynəməklə, tabesizlik göstərməklə cəmiyyətə pis nümunə olduqlarının fərqindədirlərmi? Dövlət ən sərt cəza tədbirlərini tətbiq etsin?**

Müharibədən yenicə çıxmış və yüzlərlə əsgəri Vətən savaşında yaralanmış, şəhid olmuş dövlətin bir çox qurumlarının, o cümlədən hüquq mühafizə orqanlarının fəaliyyətinə qanunsuz davranışları ilə maneçilik törədənlərin aqibətini saytların, qəzetlərin manşetində gördük. Kədərləndik də, heyfsiləndik də, qınadıq da...

Vətən həsrəti, doğulduğu yurdu görmək arzusu...bu başa düşüləndir. Ancaq həyatı bahasına başa gələcək bir səfərə çıxmaqla, sağlamlığını itirməklə doğmalarına acı yaşatmağa nə ad vermək olar?

Ötən ay Ağdamın Yusifcanlı kəndinə gedən və minaya düşən bir ailənin beş üzvünün faciəli sonluğu, Hüseynov Razi Akif oğlunun həyatını itirməsi, edilən xəbərdarlıqlara baxmayaraq, göz görə-görə övladlarını ölümün qucağına aparan ataya-Hüseynov Akif Muxtar oğluna həyat ömür boyu unuda bilməyəcəyi bir dərs verdi.

Deməli, tələblərə riayət etməyərək dinc şəraitdə həyatını itirənlərin ailə dramını yazıya almaq çətin olsa da, mənzərə çoxlarına ibrət olmalıdır.

Gəldiyimiz qənaət budur ki, qısa zaman kəsiyinə və statistikaya nəzər salsaq dövlətin bu istiqamətdə atacağı sərt addımlara haqq qazandırmış olaraq: ötən dövr ərzində işğaldan azad olunmuş ərazilərə 1321 nəfər keçməyə cəhd göstərib ki, onlardan da 100 nəfər inzibati qaydada həbs edilib, 31 nəfər barəsində cinayət işi başlanılıb.

Bu, hələ də minalanmış ərazilərə getmək arzusunda olanlara xəbərdarlıq deyilmi?

Düşmən bilirdi ki, gec-tez Azərbaycan işğalla barışmayacaq, ya sülh, ya da silah yolu ilə torpaqlarını geri alacaq. Məhz buna görə də həmin ərazilərdə keçilməz zənn etdikləri istehkamlar qurmaqla, minlərlə mina basdırmaqla düşünürdü ki, Azərbaycan əsgərinin döyüşlərdə irəliləməsinin qarşısını alacaq. Düzdür, o sədləri biz qanımız, canımız bahasına yarıb düşməni yerinə oturtduq, ona XXI əsr müharibəsinin təkcə canlı qüvvə ilə deyil, elmi-texnoloji yeniliklərlə aparıldığını başa saldıq. Şuşamızın işğaldan azad edilməsi isə Vətən savaşının kulminasiya nöqtəsi oldu. Düşmən məğlub olduğunu etiraf etdi və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Lakin düşmən məğlub olsa belə bizə müharibədən sonra da acılar yaşatmaq üçün işğaldan azad olunmuş ərazilərdə gözlə görünməyən tələlərinin-mina sahələrinin xəritəsini vermədi. Əslində, müharibə qanunlarına görə o bunu etməliydi. Məlum: erməni məkri, erməni kini...

Təəssüflər olsun ki, hələ də beynəlxalq aləm Ermənistanın bu istiqamətdə gedən danışıqlardakı susqunluğuna göz yumur. Yenə də ikili standartlar, yenə də "Bəlkə də qaytardılar" xülyası...

Sosial şəbəkələrdə jurnalistlərin, xarici ölkələrin səfirlərinin, digər rəsmi şəxslərin işğaldan azad olunmuş ərazilərə mütəmadi olaraq getmələri ilə bağlı sual ünvanlayan vətəndaşlarımıza demək istəyirik ki, bu prosedurlar müvafiq qurumlarla razılaşdırılır. Burada həm də əsas məqsəd düşmənin vandallığını dünyaya göstərməkdir...

Böyük qayıdış üçün o torpaqlarda mühüm işlərin görülməsini ləngitməmək, gecəli-gündüzlü minaların təmizlənməsində səy göstərənlərin, eləcə də Azərbaycan Polisinin xidmətinə əngəl yaratmamaq üçün tələblərə və qaydalara hamılıqla riayət etməliyik.

**Sözardı:** Bir müddət öncə Füzuli rayon sakinlərinin (adlarını qeyd etməyi lüzum görmürəm) o torpaqlara sərxoş vəziyyətdə getmələrini, mənim kimi bəlkə də çoxları qınadı. Onların həyatı təhlükəsi öz yerində, ancaq igid oğullarımızın qanı tökülən, göylərində şəhid ruhlarının sevindiyi o müqəddəs yurd yerlərinə sərxoş vəziyyətdə getmək günahların ən böyüyüdür.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Faktlar mübarizədən xəbər verir




**Cəmiyyətin bəlasına çevrilən narkomaniya hər birimizi narahat edən problemlərdəndir. Bu bəlaya düçar olanların gözümüzün önündə məhvə sürükləndiyini görmək çox ağrıvericidir. Araşdırmalar göstərir ki, cinayətlərin əksəriyyəti narkomanlar tərəfindən törədilir.**

Ölkəmizdə hüquq mühafizə orqanlarının, o cümlədən daxili işlər orqanları əməkdaşlarının narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri uğurlu əməliyyat tədbirləri nəticəsində külli miqdarda narkotik vasitə və psixotrop maddələrin dövriyyəsinin qarşısı alınır ki, bu da, yüzlərlə, minlərlə insan həyatının xilası deməkdir.

Statistik göstəricilər onu deməyə əsas verir ki, narkomaniya daha geniş vüsət alsa da polisin mübarizə tədbirləri səngimir.

Yeri gəlmişkən, bu ilin birinci rübü ərzində narkotiklərlə mübarizə tədbirləri çərçivəsində təkcə Cəlilabad RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 60 cinayət faktı aşkar edilmişdir ki, bunlardan 36-sı satış, 24-ü saxlama ilə bağlı olmuşdur. Bu növ cinayətlərin açılması 97,8 faiz təşkil etmişdir. Ümumilikdə 93 kiloqram 750 qram narkotik vasitə aşkar olunaraq dövriyyədən çıxarılmışdır ki, onlardan da 83 kiloqram 188 qramını narkotik vasitə olan heroin, eləcə də 10 kiloqram 527 qramını isə psixotrop maddə olan metamfetamin təşkil etmişdir.

Mübarizə və maarifləndirmə tədbirləri qətiyyətlə davam edirsə, əgər polis bir nəfərin belə həyatını "ağ ölüm"ün girdabından qurtarırsa, deməli, hər kəs səy və əzm göstərməklə, ona bu işdə yaxından kömək etməlidir. Bu həm də vətəndaş məsuliyyətidir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

**Fikir adamlarından biri deyib ki, heç bir elm tarix qədər öz qapılarını oxucu kütləsinin üzünə geniş açmır. Ancaq tarixin qorunduğu elə yerlər də vardır ki, qapıları hər kəs üçün açıq olmur. Oradakı bir sənədlə belə tanışlıq üçün xüsusi icazə almalı, imtiyaz sahibi olmalısan. Çünki tarix məhz bu yerdən - arxivdən qidalanır...**

# Tarixin keşikçiləri

## *Daxili İşlər Nazirliyinin arxivində keçmişimiz qorunur*



Daxili İşlər Nazirliyinin arxivində də bizim, daxili işlər orqanlarının tarixi qorunur, mühafizə edilir. Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə bilavasitə tabe olan Arxiv-Uçot Şöbəsində, əsasən, 1920-ci ildən sonrakı dövrü əhatə edən sənədlər saxlanılır. Bu sənədlərin həcmi təxminən 15 milyon vərəqdən ibarətdir.

Şöbə rəisi, polis polkovnik-leytenantı Samir Nağıyevin sözlərinə görə, arxiv daxili işlər orqanlarının fəaliyyəti nəticəsində toplanan sənədlərdən və sovet hakimiyyəti illərində repressiyaya məruz qalan şəxslərə aid materiallardan formalaşıb. Saxlanılan sənədlərin böyük əksəriyyəti məxfilik qrifi ilə qorunur. Qorunan sənədlər əmr və qərarlardan tutmuş, müstəntiqlərin xitam verdiyi cinayət işlərinə, sabiq polis əməkdaşlarının şəxsi işlərinə qədər dəyişir.

Yerlərdəki polis orqanlarından daxil olan sənədlər xüsusi qutularda qablaşdırılaraq, rəflərdə saxlanılır. Onların uzun müddət qorunmasını təmin etmək üçün arxivdə bütün zəruri tədbirlər görülüb, istilik, kondisioner və havalandırma sistemləri quraşdırılıb. Sənədlərin saxlanması üçün temperatur 17-19, nisbi rütubətlilik 50-55 dərəcə müəyyən edilib. İnzibati binanın özünün də mühafizəsi ən yüksək səviyyədə qurulub. Xüsusi həyəcan siqnalizasiya sistemi, perimetr boyunca videomüşahidə kameralarının nəzarətində olan bina, əlavə olaraq, polis naryadı tərəfindən qorunur.





Şöbə rəisi S.Nağıyev müxtəlif dövlət qurumlarının və vətəndaşların onlara müraciət etdiklərini deyir. Əsasən, keçmiş polis əməkdaşları xidmətləri, döyüş bölgəsinə ezamiyyətləri, vətəndaşlar repressiyaya məruz qalmış yaxınları barədə məlumat almaq məqsədilə sorğular göndərir, şöbə əməkdaşları isə onları qanunla müəyyən edilmiş qaydada cavablandırırlar.

Hər hansı bir vətəndaş burada qorunan sənədlərə çıxış imkanı əldə etmək istəyirsə, Daxili İşlər Nazirliyinin rəhbərliyinə ərizə ilə müraciət edib, sənədlərlə tanış ola bilər. Elmi-tədqiqat aparmaq istəyən elmi işçilər üçün isə onların çalışdıqları qurumların müraciəti əsasında daxili işlər orqanlarının arxiv materiallarına çıxış imkanı yaradılır. Bütün hallarda sənədlərlə tanışlıq yalnız şöbə əməkdaşının nəzarəti altında baş tutur.

Hazırda arxivdə saxlanılan sənədlərin elektronlaşdırılması aparılır. Proses tam başa çatandan sonra həm orijinal sənədlərin uzunömürlü olması, həm də sorğuların cavablandırılmasında operativlik ən yüksək səviyyədə təmin olunacaq.

Şöbənin mühəndis-inspektoru, polis baş leytenantı Anar Paşayev sənədlərin kağız daşıyıcılardan elektron bazaya köçürülməsinə cavabdehdir. O, deyir ki, buradakı nəinki bir vərəq, hətta, bir hərf də qiymətlidir, dəyərlidir. Köhnə sənədlər daha həssas, onların daşıdığı tarixi informasiya isə həddindən artıq böyükdür. Ona görə bəzən sənədləri bərpa etmək lazım gələndə, hərfin belə qayğısına qalmalı olurlar.

Burada çalışan həmkarlarımız bizdə təkcə asayiş keşikçiləri təəssüratı yaratmadı, onlar həm də, sözün əsl mənasında, tariximizin keşikçiləridir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# DAXİLİ İŞLƏR ORQANLARINDA XİDMƏT EDƏN ORTA VƏ BÖYÜK RƏİS HEYƏTİ ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!

**Daxili İşlər Nazirliyinin Polis Akademiyasında böyük rəis heyəti vəzifələrinin müvafiq ixtisaslı kadrlarla komplektləşdirilməsinin vacibliyini nəzərə alaraq, aşağıda göstərilmiş vəzifələrdə xidmət etmək istəyən və qeyd olunan şərtlərə uyğun gələn əməkdaşların 10 gün ərzində Baş Kadrlar İdarəsinə müraciət etmələri tövsiyə olunur.**

## *Vakant vəzifələr və bu vəzifələrə təyin olunmaq üçün tələb olunan şərtlər:*

**1.“Dövlət və hüquq nəzəriyyəsi”, “Daxili işlər orqanlarında inzibati fəaliyyət”, “Daxili işlər orqanlarında əməliyyat-axtarış fəaliyyəti”, “Mülki hüquq”, “Cinayət hüququ”, “Cinayət prosesi” və “Kriminalistika” kafedralarında müəllim:**

-Bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini hüquq ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**2.“İctimai elmlər” kafedrasında müəllim:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini humanitar və sosial istiqamətlər, tarix və ictimaiyyət ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**3.“Hərbi” kafedrada müəllim:**

-Bu vəzifəyə hərbi təhsil müəssisələrini yaxud dövlət ali təhsil müəssisələrini hüquqşünas və ya hərbi ixtisas istiqamətləri üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**4.“Dil hazırlığı” kafedrsında müəllim:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini ingilis dili ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**5.Beynəlxalq əməkdaşlıq bölməsində inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini xarici dil və sinxron tərcümə ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**6.Təchizat şöbəsində silah üzrə baş inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hərbi, silahların robototexnik sistemləri, cihazqayırma istiqamətləri üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**7.Şəxsi heyətlə iş üzrə şöbədə baş inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, humanitar və sosial istiqamətlər üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**8.Şəxsi heyətlə iş üzrə şöbədə psixoloq:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini psixologiya və klinik psixologiya ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**9.Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsində baş inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial istiqamətlər üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**10.Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsində elmi katib:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial istiqamətlər üzrə bitirmiş və elmi dərəcəyə malik əməkdaşlar tələb olunur.

**11.Əyani fakültədə kurs rəisi və kurs rəisinin müavini:**

-Bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif və hərbi hazırlıq istiqamətləri üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**12.Tədris-metodiki şöbədə baş inspektor, inspektor və metodist:**

-Bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, kompüter riyaziyyatı, avtomatika və idarəetmə, informatika və hesablama texnikası, humanitar və sosial istiqamətlər üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**13.Tədris-metodiki şöbədə texniki vasitələrin istismarı qrupunun baş inspektoru:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini kompüter riyaziyyatı, avtomatika və idarəetmə, informatika və hesablama texnikası, telekommunikasiya istiqamətləri üzrə bitirmiş, Java, C++ və Delphy proqramlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri haqqında biliyə malik olan əməkdaşlar tələb olunur.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-92-21; (012) 590-97-52; (012) 590-93-51**




**Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi və Baş Dövlət Yol Polisi İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 17-də Hacıqabul rayonu ərazisində yerləşən YPX-nin stasionar postunda Bakı şəhər sakini X.Nadirovun idarə etdiyi “Opel” markalı avtomobil saxlanılmışdır. O və sərnişini - Hacıqabul şəhər sakini R.İbrahimov Rayon Polis Şöbəsinə gətirilmişlər. Avtomobilə baxış zamanı oradan R.İbrahimova məxsus 4 kiloqram 180 qram tiryək aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ 1-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 17-də “SN Telekom” MMC-yə məxsus 78 ədəd akkumulyatoru oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş E.Ağacanov saxlanılmışdır.

◆◆◆

**Xətai RPİ 35-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisindəki bir ofisdən 1300 manat dəyərində noutbuk, printer, Qarabağ Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin ofisindən isə 1300 manat dəyərində televizor, 2 ədəd telefon, xalça və çaydan oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri R.Bayramlı və A.Məlikov müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

**Bərdə RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində aprelin 15-də Q.Məmmədovanın bank hesabından 1100 manat oğurlamaqda şübhəli bilinən Bərdə şəhər sakini, əvvəllər məhkum olunmuş Ş.Abdullayev saxlanılmışdır.

◆◆◆

**Xaçmaz RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Nabran kənd sakini R.Xanbabayevin yaşadığı evə baxış zamanı oradan heroin, tiryək, habelə həyətyanı sahədə kultivasiya yolu ilə yetişdirilmiş 428 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Yasamal RPİ 29-cu PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 20-də rayon ərazisindəki evlərin birindən 23000 manat və 15000 ABŞ dolları oğurlamaqda şübhəli bilinən həmin evdə xadimə işləyən Bakı şəhər sakini S.Quliyeva saxlanılmışdır.

◆◆◆

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini X.Vəlişov Sabunçu rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 4 kiloqram 580 qram heroin və 3 qram metamfetamin aşkar edilərək götürülmüşdür.

## Aprel ayının 14-dən 20-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 229 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 35 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 200, o cümlədən borclu şəxs qismində axtarışda olan 121 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 6 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 7 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 159 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 21:00
Qiyməti 40 qəpik